**UOT 911.3**

# LƏNKƏRAN- ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNUN REKREASİYA-TURİZM EHTİYATLARINDAN MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNDƏ İSTİFADƏ İMKANLARI

**S.Ə.TALIBOV**
***Bakı Dövlət Universiteti***
***patriotalibov@hotmail.com***

*Məqalə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi məsələsinə həsr olunmuşdur. Bu məqsədlə müalicə-sağlamlıq turizminin xüsusiyyətləri, onun inkişaf etdirilməsi üçün tələb olunan şərait və imkanlar araşdırılır. Azərbaycan Respublikasının müstəqilliyinə qədər ölkə ərazisində sanatoriya və kurort turizmi ilə bağlı yaradılmış şərait, öyrənilən ərazidə bu sahədəki potensial təhlil edilir, qiymətləndirilir. Məqalədə mövcud imkanlardan istifadə etməklə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda müalicə turizminin inkişaf perspektivlərinin açılmasına cəhd göstərilir.*

**Açar sözlər:** iqtisadi-coğrafi rayon, turizm, müalicə turizmi, müalicə-sağlamlıq turizmi, idman-sağlamlıq turizmi

Müalicə-sağlamlıq turizmi haqqında elmi ədəbiyyatda müxtəlif fikirlər yer alır. Asudə vaxtın təşkilində əhəmiyyətli rol oynayan turizm, adamların bir çox tələbatlarının ödənilməsi üçün də geniş imkanlar açır. Turist səfərləri artıq yalnız asudə vaxtı keçirməklə məhdudlaşmayıb müxtəlif ehtiyacların yerinə yetirilməsi ilə kombinə edilmiş şəkildə gerçəkləşdirilir.

Sosial baxımdın turizm anlayışı çoxtərəflidir. Turizmə sosial yöndən yanaşma onun üç formasını müəyyənləşdirməyə imkan verir: 1) turizm sosial fəaliyyət və fəallığın növü kimi; 2) turizm təbii və mədəni irsi öyrənmək üçün fərdlərin müxtəlif məkan və zaman daxilində mobil hərəkət forması kimi; 3) turizm fərdin müxtəlif istiqamətlərdə şəxsi inkişafını təminetmə vasitəsi kimi. Struktur-funksional təhlil nöqteyi-nəzərindən turizm müxtəlif funksiyalar yerinə yetirən sosial institut kimi çıxış edir, müxtəlif funksiyalar fərdin mənəvi və fiziki imkanlarını saxlamağı və inkişaf etdirməyi, şəxsin çoxtərəfli keyfiyyətlər qazanmasını, ətraf mühiti, eləcə də təbii və mədəni irsi dərketməni nəzərdə tutur. Zaman-məkan daxilində yerdəyişmə ilə fiziki və mənəfi keyfiyyətlərin

inkişafına yönəlmiş fəaliyyət kimi özünü göstərən turizm bir çox cəhətdən diqqəti cəlb edir. Burada əsas və vacib olanı insanın daimi yaşadığı məkanı müvvəqəti dəyişməsi, yeni təbiət, mədəniyyət və tarixlə tanış olmaqdır. Bu cəhətlər insanın məkana görə yerini dəyişməsinə əsaslı təsir göstərir. İlk turist səfəri sonralar yeni istiqamət və marşrutlar üzrə səfərlərə sövq etdirir.

Turizmin əsas funksiyalarını təkrar istehsal ( rekreasiya, bərpa) öyrənmə, özünütəsdiqdir. Bu funksiyalar bir-biri ilə qarşılıqlı əlaqəlidir. Nəticədə turist proqramları turizmin istehlakçısına sistem xidmətlərin göstərilməsinə çalışır. Bu zaman fərdin turist səfərinin motivasiyası əsas götürülür.

Turist motivasiyasının əsas amillərindən biri də sağlamlıqdır. Adamlar çox vaxt müalicə, sağlamlıq və sağlamlığın profilaktikası məqsədilə səfərlərə çıxırlar. Onu da qeyd edək ki, idmanla məşğul olmaq (idman turizminin bəzi növləri), müəyyən bacarıqlar qazanmaq (səmti təyinetmə, gəzinti turizmi, meşə turizmi, dağ turizmi) məqsədilə təşkil olunan turist səfərlərində də əsas məqsədlərdən biri sağlamlıqdır. Öz təbiətinə görə turizm sosial hadisədir. Turizm cəmiyyət üzvlərinin mənəvi və fiziki inkişaf etdirməklə, insanlararası ünsiyyəti yaxşılaşdırmaqla əlaqədardır. Turizmin sosial xarakteri onun ictimai həyatın müxtəlif sferalarına təsiri ilə də özünü göstərir. Məsələn, turizm insanların maraq dairəsini tələblərini dəyişir, istehlak mədəniyyətini formalaşdırır (1).

Turizm cəmiyyətin bütün fəaliyyət sahələrinə, o cümlədən də iqtisadiyyata, mədəniyyətə, sosial sahəyə təsir göstərir. Müasir dünyada turizm ən gəlirli sahələrdən birinə çevrilmişdir. Dünya kapitalının 7%-ni istifadə edən beynəlxalq turizmin illik gəliri, BTT-nin məlumatına görə, 1995-i ildən başlayaraq stabil artır. 90-cı illərin əvvəllərində mal və xidmət ticarətində turizmin payı 10%-ə qalxmışdı. Bu isə neft və avtomobil eksportundan sonra III yer deməkdir. Turizmə qoyulan investisiyaların illik artımı 30% təşkil edir (2, 2).

Turizmin kütləviliyinin inkişaf etdirilməsi dünyada turizm sənayesini yaratmışdır. Bu sənayedə turist təşkilatları turist xidmətlərini və turist səfərləri istiqamətlərini təklif edir.

Turist xidmətləri arasında müalicə-sağlamlıq turizmi xüsusi yer tutur. Müalicə-sağlamlıq turizminin əsası insanın psixi, müalicə, sağlamlığın kompleks bərpasına yönələn tədbirdir. İnsanlar özlərinin intellektual, fiziki və emosional qüvvələrini daim bərpa etmək ehtiyacına malikdir. Bununla əlaqədar rekreasiya tələblərinin iki qarşılıqlı əlaqəli komponenti özünü göstərir. Birincisi psixofizioloji, ikincisi isə mənəvi-intellektual tələbləri əhatə edir. Psixofizioloji tələblər qidalanma, yuxu və hərəkət vasitəsilə; mənəvi-intellektual tələblər isə öyrənmə, ünsiyyət və sağlamlığın möhkəmləndirilməsi yolu ilə ödənilir. Müalicə-sağlamlıq turizmi məhz bu vasitələri kompleks şəkildə təklif etmək imkanlarına malikdir.

Məlumdur ki, elmi-texniki tərəqqi, ekoloji vəziyyətin korlanması əhalinin sağlamlığının zəifləməsinə səbəb olur. Stress, gərginliyinin artması nəticəsində insan öz orqanizmində fiziki və əqli yorğunluq hiss etməyə başlayır. Bu isə bütün dünyada insanın öz sağlamlığı, mənəvi və fiziki qabiliyyətlərinin

bərpasına olan marağını sürətlə artırır (5).

İnkişaf edən ölkələrdə səhiyyə, həmçinin istirahətlə vəhdətdə sağlamlığın yaxşılaşdırılması xəcrlərinin artması adamları onlar üçün maddi cəhətdən mümkün olan yüksək keyfiyyətli müalicə-sağlamlıq xidmətlərini axtarmaq tələbi qarşısında qoyur. Bu isə bütün dünyada müalicə-sağlamlıq turizminin təşkilini aktuallaşdırır.

Qeyd etmək lazımdır ki, Avropa Kurort Assosiasiyası müalicə turizmini fərdin sağlamlığını möhkəmləndirmək və fiziki cəhətdən inkişaf məqsədilə daimi yaşayış yerindən kənara çıxmaqla istirahət etməsi kimi təyin edir (6, 11).

Turizm üzrə rus tədqiqatçılarının işlərində müalicə, idman-sağlamlıq, reablitasiya turizmi, rekreasiya turizmi kimi anlayışlardan istifadə olunur (7, 51).

A.V.Babkinin fikrinə görə, müalicə-sağlamlıq turizmi sağlamlıq, eləcə də müxtəlif xəstəliklərin profilaktikası məqsədilə fərdin 20 saatdan az və 6 aydan çox olmamaq şərtilə ölkə daxilində və ya ölkə hüdudlarından kənara yerdəyişməsini nəzərdə tutur (8, 40).

Müalicə-sağlamlıq turizminin üç əsas təşkiledicisi vardır:1) müalicə-reablitasiya; 2) sağlamlığın bərpası (valeoloci); 3) rekreasiya (7, 51). Bu növlərdən birincisi tibbi xidmətin göstərilməsini, xüsusilə təbii turizm ehtiyatlarından istifadəni tələb edir, ikincisi sağlamlığın kompleks bərpasına yönəldilir, üçüncü isə təşkiledici istirahət və asudə vaxtın təşkili ilə bağlıdır. Bütün bunlar müalicə-sağlamlıq turizminin dəqiq sərhədlərinin hələlik tam təyin olunmadığını göstərir.

Ölkədə 1500-dən çox mineral və termal sular, müalicəvi xüsusiyyət daşıyan 4 palçıq vulkanı və bir müalicəvi neft mənbəyi vardır. Ölkədə mineral və termal suların yayılma xüsusiyyətinə görə ən çox mineral sular Kiçik Qafqaz və Naxçıvanda, termal sular isə Talış, Böyük Qafqaz və Abşeronda yayılıb (10).

Azərbaycanın cənub-şərqində yerləşən Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun tərkibinə Astara, Masallı, Lerik, Yardımlı və Cəlilabad inzibati rayonları və respublika tabeli Lənkəran şəhəri daxildir. Bu iqtisadi-coğrafi rayon hələ sovet dövründə Azərbaycanın potensial turizm zonalarından biri olmuşdur. Eyni zamanda, həmin dövrdə iqtisadi rayonda müalicə və sağlamlıq məqsədli səfərlər təşkil olunmuşdur. Sovet dövründə kurort və sanatoriyalarda olmaq turist xidməti kimi qiymətləndirilməmişdir.

Azərbaycanın Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda müalicə-sağlamlıq turizminin həm tibbi xidməti, həm də istirahət və asudə vaxtın keçirilməsini nəzərdə tutan xidmət növlərinin təşkili üçün imkanlar vardır. Hələ sovet dövründə burada sağlamlıq məqsədli sağlamlıq turları yaradılmışdır. Müasir vəziyyətdə iqtisadi rayonda turistlərin müəyyən həcmdə qəbul edilməsi üçün otel və digər yerləşmə müəssisələri də fəaliyyət göstərir. 2012-ci ildə olan statistik məlumata görə iqtisadi rayon üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayının ümumi mənzərəsi cədvəldə

(diaqramda) verilmişdir (cədvəl 1).

Regionun o dövrdəki turizm imkanlarını genişləndirən əsas cəhətlər dəniz sahilində yerləşmə, meşə və dağ massivləri ilə əhatə olunmasıdır.

Cədvəl 1

**Lənkəran-Astara iqtisadi-coğrafi rayonu**




İqtisadi rayonda müasir vəziyyətdə ekoturizmin imkanları genişdir. Ekoturizmə təbiət abidələri, ekzotik landşaft, meşəlik ərazilər, dağ ekosistemləri daxildir. Bu imkanlar iqtisadi-coğrafi rayonda kifayət qədər yayılmışdır. Rayonda əsas hidroloji abidələr sisteminə müxtəlif dağ çayları, bəzi şəlalələr, mineral bulaqlar daxildir ki, bunlara da əsasən Astaranın İstisu kəndində, Lənkəranın İbadisu, Haftoni kəndlərində, habelə Masallının Qəriblər kəndində və s. olan istisular məşhurdur. Regionda müalicə xüsusiyyətli isti su bulaqlarının olması turizmin bu istiqamətinin inkişafı üçün yaxşı perspektivlər açır. Hazırda regionun Lənkəran və Masallı rayonlarına yerli və xarici turist axınının əsas hissəsi məhz bu istiqamətlidir.

Qeyd olunduğu kimi Lənkəranda hələ sovet dövründə müxtəlif turizm zonaları yaradılmışdı. 1980-i ildə burada təşkil edilən səyahət və ekskursiyalar bürosu cənubdakı 7 rayon üzrə 15 istiqamətdə turist marşrutları təşkil edirdi. Lənkəran 3 turizm zonasına ayrılıb.

Lənkəran rayonunun sahilyanı zonası Xəzər dənizi sahilini tamamilə əhatə edir. Müalicəvi əhəmiyyətli qara qumla zəngin olan sahil boyunca meşəlik ərazidə restoran və otellər fəaliyyət göstərir. Şəhərdəki ən zövqlü istirahət növlərindən biri sahilə enib orada çay içmək və dənizi seyr etməkdir. Lənkəranda Xəzərdən xoş dəniz qoxusu gəlir. Hər tərəfdə dənizə atılmış balıqçı torları və düz sahildən keçən dəmiryoluyla hərəkət edən qatarlar, dənizkənarı park özünəməxsus aura yaradır. Rayonun Vel kəndində nəzərdə tutulan dəniz limanı turizm üçün yaxşı perspektivlər açır.

Lənkəran bölgəsində kurort turizm təsərrüfatının inkişafı üçün zəngin balneloji resurslar və mikroiqlim şəraiti vardır. Qeyd olunan potensialın az bir hissəsindən istifadə olunur. Bölgədə üç sanatoriya tipli müalicə müəssisəsi, 14 yerli əhəmiyyətli müalicə vannaları olan sağlamlıq mərkəzləri fəaliyyət göstərir. Bunlardan Lənkəran müalicə pansionatı 400 yerlik olmaqla Kurort Səhmdar Cəmiyyətinin tabeliyindədir. Lənkəranda olan İstisu müalicə sağlamlıq mərkəzinin bir hissəsi özələşdirilmiş, qalan hissəsi isə Kurort Səhmdar Cəmiyyətinin tabeliyində fəaliyyət göstərir. Masallıda İstisu sanatoriyasının tərkibində fəaliyyət göstərən Fatmeyi-Zəhra sanatoriyası ilk özəl kurort müəssisəsindən sayılır. Burada müalicə və sağlamlıq tədbirləri birgə həyata keçirilir.

Lənkəran şəhərindən 5-7 km məsafədə yerləşən Haftoni kəndində, dağlıq ərazidə 350 nəfər üçün nəzərdə tutulmuş "İstisu" sanatoriyası yaradılıb. Ərazinin adı Hafthoni talış dilində yeddi bulaq deməkdir. Ərazidə yerləşən bu yeddi bulaq müalicəvi istisu bulaqlarıdır. Bu sanatoriya Talış dağlarının əhatəsində olan çox gözəl mənzərəyə malik bir ərazidə açılıb və oynaq , onurğa xəstəlikləri üçün nəzərdə tutulub. Kükürd tərkibli mineral sular bir çox xəstələyin dərmanıdır (9). Yerli əhalinin dediyinə əsasən 1941-1945 ci illərdə buraya çoxlu sayda yaralı əsgər gətirirdilər. 5-6 gün mineral su vannası qəbul edən yaralılar ayağa qalxır və evlərinə qayıdırdılar. Ancaq son illərdə sanatoriyada çox ciddi çətinliklər müşahidə olunur. Sanatoriyaya olan yol vərəqlərinin (ptyofkalarının) qiyməti artmışdır. 20 günlük müalicənin qiyməti 350 dollardır. Buraya müalicə üçün gələnlər yol vərəqi dəyərinin 20 %-i özləri ödəyir, yerdə qalan 80 %-i isə həmin xəstəni bu sanatoriyaya göndərən təşkilat, şirkət və s. qurum ödəyir. Bu qurumlar xəstəni sosial fond vasitəsilə göndərir. Ancaq sosial – sığorta fondu ilə əməkdaşlığı olan qurum azlıq təşkil edir.

İbadi bulağı Ləj kəndi, kiçik dağ massivində yerləşir. İbadi və Sumax dağlarının yamaclarında müxtəlif temperaturlu sular qaynayır. Lənkəranın qərbində, Lerik yolunun üstündə, mərkəzdən 17 km aralıda yerləşir. Vulkandan əmələ gəlmiş hidrogenli bulaqdır. Onların suyu içməlidir. Mədə, öd kisəsi, osteoxondroz və digər sümük xəstəlikləri üçün yaxşı dərman hesab olunur. Rəvayətə görə ağır xəstəliyə tutulmuş İbadulla adlı bir şəxs bu yerdə məskən salıb və şəfa tapıb.

Masallı rayonunda olan İstisu sanatoriyası 60 yerlikdir. Bu müalicəvi su Masallı şəhərindən 13 km aralıda, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə qərar tutmuş Dəmbəlov dağının döşündə, Viləş çayının sahilində qaynayır. Şəfa ocağının yaranma tarixini bilən yoxdur. Adamlar bu suya həmişə min bir dərdin dərmanı olan möcüzə kimi baxıblar. Tərkibində hidrogen- sulfit, natrium-xlor, kalsium, maqnezium – hidro karbonat və hər litrində 30 milliqram yod vardır. Yerin çox dərin qatlarından isti halda (müsbət $50^0$C -dən yuxarı) çıxır. Bu məhlul xəstəlikləri iynə dərmansız sağaldır. Bütün bunları ötən əsrin 60-cı illərində Masallıdan olan alim-həkim, şair-bəstəkar Mir Kazım Aslanlı üzə çıxarıb (indi istisuya gələnlər mərhum alimin yol üstündəki məzarını ehtiramla ziyarət edir, ruhuna dualar oxuyurlar). Mir Kazım Aslanlı elmi əsaslarla

sübut edib ki, bu su ilə yel, dəri, böyrək, sidik yolları, radikulit, prostat, hipertoniya, qara ciyər və öd yolları, sonsuzluq, mədə - bağırsaq və digər xəstəlikləri müalicə etmək mümkündür. Onu da qeyd etməyə dəyər ki, çox populyar mineral su olan İstisu qablaşdırılaraq ölkənin apteklərində satılır (13).

Əvvələr məhdud və primitiv şəkildə fəaliyyət göstərən "İstisu" illər keçdikcə şöhrətlənmiş, böyüyüb inkişaf etmişdir. İndi burada istirahət üçün rahat otellər, müalicəvi vannalar, hər cür şəraiti olan sosial-məişət obyektəri var. Termal su şəlaləsi və asma körpü isə bu yerlərə xüsusi gözəllik verir.

Sanatoriyada dincələnlər və müalicə alanlar Viləş çayındakı çimərliklərdə, dəryaçayda qayıq gəzintisində, idman meydançasında günləri şən keçirə bilərlər. Həmçinin Viləş çayının sahilində at və dəvə ilə gəzintiyə çıxmaq, qonşu Yardımlı rayonunun Təkdam şəlaləsinə, Lənkəran, Astara və Lerikin görməli turist marşrutlarından istifadə imkanları vardır. Axşamlar isə rəqs meydançaları turistlərin və istirahət edənlərin ixtiyarında olur. "Yanar bulaq" adlanan yer Astaraya gələn turistlər üçün əsas ziyarət yerlərindən biridir. Bura gələn turistlər kibritin suda söndüyünü dəqiq bilmələrinə baxmayaraq, onun suyu alışdırıb yandırdığını ilk dəfə görürlər. Onlar bilmirlər ki, Azərabycanda bu cür möcüzələr çoxdur. Suyun yanması barədə, hətta poetik örnəklərimiz də var.

Fatmeyi-Zəhra sanatoriyası da İstisu kurortunun özəlləşdirilmiş hissəsində 50 yerlik müalicə sağlamlıq mərkəzindən ibarətdir. İlboyu fəaliyyət göstərmək imkanına malikdir. Müxtəlif daxili xəstəliklərin müalicəsi aparılır. Son illər buraya gələn turistlər üçün SPA xidmətləri təşkil olunmuşdur (12).

Bölgədə kurort-turizminin inkişafı üçün mövcud potensialdan istifadə olunarsa, gələcəkdə buraya müalicə məqsədilə gələnlərin sayının artmasına səbəb ola bilər. Həmçinin İrandan gələn turistlər hesabına da müalicə -sağlamlıq xidmətlərinə tələbatı artırmaq mümkündür.

Lənkəran bölgəsində çoxlu sayda mineral ve termal sular vardır ki, bunların da tərkibində kükürd çox olduğu üçün müalicəvi xüsusiyyətləri daha yüksəkdir. Bölgənin yüksək debitli termal sularından olan Ərkivan, İbadisu, Ənci, Meşəsu, Biləsər, Qızılca, Qotursu, İstisu və s. mənbələri yaxınlığında müasir kurort komplekslərinin tikintisi mümkündür.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonu su turizmi potensialı və idman turizmi imkanları da genişdir. İdman turizmi məqsədilə təbiət abidələrindən istifadə olunması imkanı vardır. Təbiət abidələrinə təşkil olunan turların birbaşa fiziki rekreasiyon fəaliyyətlə bağlı olması idman turların təşkili üçün əlverişli şərait yaradır. Belə turist fəaliyyəti idman-sağlamlıq turizmi səviyyəsinə qaldırıla bilər.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda müəyyən edilmiş marşrut üzrə piyada turizm səyahətləri təşkil oluna bilər. Bu yay mövsümündə ən geniş yayılmış turizm sahəsidir və iqtisadi-coğrafi rayon üçün məqbul turizm növüdür. Elə mürəkkəb piyada turist marşrutları olur ki, onları, ancaq təcrübəli, idmançı turistlər keçib gedə bilir, sadə marşrutlarda isə hamı səyahətə çıxa

bilər. Qeyd olunanlar bu regionda həm mürəkkəb, həm də sadə piyada turist marşrutları yaratmaq imkanını gerçəkləşdirir. Səyahətlərlə maraqlanan üçün turizmlə məşğul olmağın ən sadə yolu piyada turizmdir. Onu da qeyd edək ki, piyada turizm əsasən meşəlik və dağətəyi ərazilərdə aparılır.

Ümumiyyətlə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizm potensialı kifayət qədər genişdir. Bütün bu potensialın müəyyənləşdirilməsi gələn turistlərin asudə vaxtlarının təşkili və onların müxtəlif marşrutlar üzrə rəngarəng ekskursiyalarda iştirakının təmin olunmasını nəzərdə tutur. Bütün bunlar rayon ərazisində turizm məsələlərinə kompleks yanaşılmasını tələb edir. Bu iqtisadi rayonun turizm imkanları bir rayon ərazisi ilə məhdudlaşmamalıdır. Lənkəranda yerləşən turistlərin iqtisadi rayonun başqa rayonlarına səyahətlərinin təşkili xüsusi maraq doğuran bir məsələdəir. Fikrimizcə, qeyd olunan iqtisadi-coğrafi rayonun turizm potensialı həm ayrı-ayrı rayonlar üzrə, həm müxtəlif rayonları əhatə etmək şərtilə öyrənilməlidir.

Təhlil göstərir ki, Lənkəran-Astara iqtisadi-coğrafi rayonu ərazisində sanatoriya-kurort komplekslərinin yaradılması imkanları genişdir. Bu məqsədlə iqtisadi rayonun dağ massivlərindəki bulaqlarından axan istisuların, eləcə də sərin suların tərkibi laboratoriya şəraitində öyrənilməli, onların müalicəvi əhəmiyyəti, həmçinin müalicə və sağlamlıq məqsədilə istifadə yolları müəyyənləşdirilməlidir. İqtisadi rayon ərazisində su və palçıq vannaları, həmçinin bulaq sularının tibbi baxımdan təyin olunmuş normalarla içilməsi ilə müalicə-profilaktikanın aparılmasını təşkil etmək mümkündür. Hazırda bu əraziyə təşkil olunan turist səfərləri pərakəndə xarakter daşıyır. Su vannalarından istifadə yalnız sanatoriya ərazisində müalicə-sağlamlıq normaları ilə aparılır. Digər istisu mənbələrindən isə turistlər kustar üsulla istifadə edirlər. Bütün bu məsələlər rayon ərazisində müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsinin vacibliyini təsdiq edir.

## ƏDƏBİYYAT


1. Малышева Е.В. Социальный феномен удовлетворенности качеством услуг туристской индустрии / Е. В. Малышева // Социология и общество: глобальные вызовы и региональное развитие : материалы IV очередного Всероссийского социологического конгресса. Секция 28 «Социология туризма». 2012, с. 6461 – 6468 .
2. Нарушевич Р.Р. Формирование рынка лечебно-оздоровительных услуг: Автореф. дис. ….канд экон. Наук. СПб., 2004, 258 с.
3. Интернет-газета «Столетие»// http://www.stoletie.ru/lenta/
4. Список стран по туристическим посещениям (*World Tourism rankings*)// https://ru.wikipedia.org/wiki/Список_стран_по_туристическим_посещениям
5. The Global Spa Summit LLC, Spas and the Global Wellness Market^ Synergies and Opportunities by SRI International, 2010, 153 p.
6. Ветитнев А.М. О соотношении понятий «лечебный туризм» и курортное дело»// Санаторно-курортные организации: менежмент, маркетинг, экономика, финансы. М.: Медиздат, 2011, № 3, 252 с.
7. Ветитнев А.М., Дзюбина А.В., Торгашева А.А. Лечебно-оздоровительный туризм: вопросы терминологии и типологии// Вестник СГУТиКД 2012. №2 (20), с 50-56.

8. Бабкин А.В. Специализированные виды туризма. Ростов на Дону, Феникс, 2008, 252 с .
9. Talıbova A. Azərbaycanı kəşf et. Bakı, 2012, 520 s.
10. Dərgahov V.S. Rekreasiya- turizm ehtiyatları. Bakı, 2008, 214 s.
11. Dərgahov V.S. Azərbaycanın Xəzərsahili bölgəsinin rekreasiya-turizm ehtiyatları. Bakı, 2003, 138 s.
12. Dərgahov V.S. SPA mərkəzləri və onların təsnifatı. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Azərbaycan Turizm İnstitutu. "Turizm və rekreasiya: problemlər və perspektivlər" Üçüncü respublika elmi praktiki konfransının materialları. Bakı, 2010, s. 201-205.
13. Dərgahov V.S., Kərimov R.T. Azərbaycanda kurort-müalicə turizmi: inkişaf tarixi, müasir vəziyyət, problemlər və respektivlər. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Bakı Dövlət Universiteti. Azərbaycan Coğrafiya Cəmiyyəti. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XVII cild // "Azərbaycanda turizminin inkişafı və regional problemlər" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2011, s. 182-191.

## ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ РЕКРЕАЦИОННО-ТУРИСТСКИХ РЕСУРСОВ ЛЯНКАРАНЬ-АСТАРИНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА В ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОМ ТУРИЗМЕ

**С.А.ТАЛЫБОВ**

**РЕЗЮМЕ**

Статья посвящена вопросам развития лечебно- оздоровительного туризма в Лянкарань- Астаринском районе. С этой целью рассматриваются особенности лечебно - оздоровительного туризма, условия возможности, требующиеся для его развития. Анализируется и даются оценка условиям связанным с санаторно-курортным туризмом до получения Азербайджанской Республики суверенитета, а также потенциал неиследуемой территории. В статье даются попытки перспектив развития лечебного туризма с использованием существующих возможностей в Астаринском экономическом районе.

**Ключевые слова:** спортивно-оздоровительный туризм, медицинский туризм, экономико-географический регион, туризм, лечебно-оздоровительный туризм

## ON THE RECREATIONAL TOURISM POTENTIAL OF LANKARAN –ASTARA ECONOMIC-GEOGRAPHICAL REGION

**S.A.TALIBOV**

**SUMMARY**

The development of recreational tourism in Lankaran- Astara economic-geographic region is described in the article. For this, features of recreational tourism, opportunities and potentials of its development are researched. Opportunities of this field and potentials of recreational tourism for pre-independence period of Azerbaijan Republic are analyzed and measured. There have been made attempts to open up perspectives of medical tourism in Lankaran-Astara economic-geographic region through using existing opportunities.

**Key words:** sport-health tourism, tourism, medical tourism, recreational tourism, economic-geographical region.